# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# QƏRAR

**“Ayrı-ayrı ixtisaslar üzrə peşə təhsili müəssisələrində dövlət sifarişi ilə hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı”nın və “Yeni maliyyələşmə mexanizminin tətbiqi ilə bağlı dövlət sifarişi ilə peşə təhsili müəssisələrində kadr hazırlığının maliyyələşdirilməsi və hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarına artım əmsalının tətbiq edilməsi qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 14 iyun tarixli 192 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 14 iyun tarixli 192 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 6, maddə 855 (Cild I); 2024, № 1, maddə 75) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - “Ayrı-ayrı ixtisaslar üzrə peşə təhsili müəssisələrində dövlət sifarişi ilə hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı”nda aşağıdakı dəyişikliklər edilsin:

1. 16-cı hissənin “İxtisaslar” sütununda “malları” sözü “məhsulları” sözü ilə əvəz edilsin.
2. 120-ci hissənin “İxtisaslar” sütununda “Dəmiryolu” sözü “Dəmiryol” sözü ilə, “keçidinin” sözü “keçidi” sözü ilə əvəz edilsin.
3. 121-ci hissənin “İxtisaslar” sütununda “Dəmiryolu” sözü “Dəmiryol” sözü ilə əvəz edilsin.
4. 151-ci hissənin “İxtisaslar” sütununda “Kostyum ustası və dərzi” sözləri “Səhnə kostyumları üzrə dərzi” sözləri ilə əvəz edilsin.
5. Aşağıdakı məzmunda 169-193-cü hissələr əlavə edilsin:

| | | |
|---|---|---|
| 169. | 3D rəqəmsal oyun dizayneri | 1 860 |
| 170. | Alternativ enerji qurğu və avadanlıqlarının istismarı | 2 470 |

| | | |
|---|---|---|
| 171. | Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları üzrə operator | 1 280 |
| 172. | Bədii tikmə ustası | 1 930 |
| 173. | Daş memarlıq abidələrinin bərpaçısı | 1 650 |
| 174. | Dronların texniki xidməti və təmiri üzrə texnik | 2 390 |
| 175. | Elektrik sayğacları texniki | 2 580 |
| 176. | Elektrik və hibrid avtomobillərinin texniki qulluğu və təmiri üzrə texnik | 2 710 |
| 177. | Günəş panelləri quraşdırıcısı və təmirçisi | 2 580 |
| 178. | İstehsalata rəqəmsal nəzarət sistemləri | 2 180 |
| 179. | Kargüzarlıq və ofis xidmətləri üzrə mütəxəssis | 1 340 |
| 180. | Mexatronika | 2 710 |
| 181. | Musiqi alətlərinin ustası | 2 336 |
| 182. | Qida və içki üzrə nəzarətçi | 2 210 |
| 183. | Rəqəmsal inşaat üzrə mütəxəssis | 1 880 |
| 184. | Rəqəmsal məzmun idarəçiliyi | 1 860 |
| 185. | Satış və marketinq | 1 360 |
| 186. | Suvarma maşınları və nasos qurğuları maşinisti | 2 388 |
| 187. | Tədbirlərin planlaşdırılması və təşkili | 1 590 |
| 188. | Yeraltı qaz kəmərlərinin təmiri və istismarı üzrə çilingər | 2 570 |
| 189. | Kompüter sistem inzibatçısı | 1 440 |
| 190. | Geodeziya və kartoqrafiya | 1 650 |
| 191. | Satınalmaların təşkili | 1 340 |
| 192. | Qida emalı texnologiyaları | 2 210 |
| 193. | Bitki mühafizəsi və fumiqasiya işləri üzrə texnik | 2 200 |

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, “ 30 ” “ iyun ” 2026-cı il

№ 203